# Milli birliyin parlaq təzahürü



**Dünya Azərbaycanlılarının Həmrəylik Günü həm ölkəmizdə, həm də dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız arasında birlik və həmrəylik bağlarının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Hər il dekabrın 31-də qeyd edilən bayram diasporumuzun gücünü, Azərbaycan mədəniyyətinin və milli-mənəvi dəyərlərinin dünyanın müxtəlif guşələrində təbliğini təmin etmək məqsədi daşıyır.**

Azərbaycanlılar arasında birlik və həmrəylik tarixin bütün dövrlərində özünü göstərmişdir. Soydaşlarımızın müxtəlif ölkələrdə, ayrı-ayrı qitələrdə yaşaması milli dəyərlərdən uzaqlaşmağa deyil, əksinə, birliyinə səbəb olmuşdur. Dünya Azərbaycanlılarının Həmrəylik Günü bu bağlılığın rəmzinə çevrilərək milli kimliyin qorunması, birliyimizin gücləndirilməsi və gələcək nəsillərə ötürülməsi missiyasını yerinə yetirir.

Bu bayramın qeyd edilməsi XX əsrin sonlarında xalqımızın tarixində mühüm dönüş nöqtələrindən biri olan 1991-ci ilin dekabr hadisələri ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə rəsmiləşən bu bayram o vaxtdan bəri hər bir azərbaycanlının həyatında xüsusi yer tutur. Bayram həm də müstəqil Azərbaycanın dünyada tanınması və milli maraqlarının müdafiəsi baxımından əhəmiyyətlidir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü, həmçinin xalqımızın mütəşəkkil bir qüvvə kimi çıxış etməsinə, mədəniyyətimizin, dilimizin və tarixi irsimizin qorunmasına xidmət edir. Hər ilin bu günü müxtəlif ölkələrdə yaşayan soydaşlarımız milli musiqilərimizin sədaları altında xalqımızın zəngin mədəniyyətini tanıdır, bayrağımızın əzəmətini nümayiş etdirirlər.

Bu gün ölkəmizdə dünya azərbaycanlılarının həmrəyliyinin gücləndirilməsi üçün çoxşaxəli siyasət yürüdülür. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi vasitəsilə müxtəlif beynəlxalq tədbirlər, forumlar və festivallar təşkil olunur. Məqsəd soydaşlarımızı bir araya gətirmək, onların yaşadıqları ölkələrdə Azərbaycanın maraqlarının müdafiəsində daha fəal iştirakını təmin etməkdir.

Bu bayramın keçirilməsində məqsəd gələcək nəsillərdə milli mənsubiyyət hissinin gücləndirilməsi, hər bir azərbaycanlının dünyanın harasında yaşamasından asılı olmayaraq bir ailənin üzvü olduğunu dərk etməsidir.

2020-ci il sentyabrın 27-si həm Vətən müharibəsinin başlanğıcı, həm də xalqımızın həmrəyliyinin və milli birliyinin ən parlaq təzahürü kimi yadda qaldı. Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə bir yumruğa çevrildi. Hər bir azərbaycanlı bu mübarizədə öz yerini aldı - kimisi ön cəbhədə döyüşərək, kimisi isə arxa cəbhədə maddi-mənəvi dəstək göstərərək.

44 gün davam edən Vətən müharibəsi hər günü qəhrəmanlıq nümunəsi olan bir dastana döndü. Müzəffər Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi azad etdi və ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Bu tarixi Zəfər hərbi sahədə və siyasi-diplomatik cəbhədə qazanılmış böyük nailiyyət idi. Ölkə başçımızın gərgin diplomatik səyləri, xalqın rəhbərinə olan etimadı və ordumuzun peşəkarlığı milli gücün bariz nümunəsi oldu.

Zəfərin əldə edilməsində xalqımızın həmrəyliyi və birliyi müstəsna rol oynadı. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar bu tarixi mübarizədə Vətən sevgisi ətrafında birləşərək güclü dəstək nümayiş etdirdilər. Azərbaycan diasporu müxtəlif ölkələrdə mitinqlər, aksiyalar təşkil edərək haqq səsimizi dünyaya çatdırdı. Xaricdə yaşayan soydaşlarımız öz resursları ilə həm Azərbaycan Ordusuna, həm də erməni təxribatlarına məruz qalan mülki əhaliyə dəstək oldular.

Bu birlik və həmrəylik 1991-ci ildən etibarən qeyd olunan Dünya Azərbaycanlılarının Həmrəylik Gününün mahiyyətini aydın göstərir. Bayram milli birlik və diasporumuzu bir araya gətirmək məqsədi daşıyır, Vətən müharibəsi dövründə bu ideyanın yüksək səviyyədə həyata keçdiyini gördük. Dünya azərbaycanlılarının həmrəyliyi təkcə bayram günlərində deyil, həm də ən çətin və məsuliyyətli anlarda xalqımızın milli gücünün tərkib hissəsinə çevrildi.

Həmrəylik ruhu təkcə tarixi qələbələr qazanmaq deyil, həm də bu qələbələrin davamlılığını təmin etmək üçün vacibdir. Dünya azərbaycanlılarının əsas vəzifələrindən biri Qarabağın bərpası və regionun gələcək inkişafı üçün həmrəylik ruhunu qorumaqdır. İşğaldan azad edilmiş ərazilərimizin bərpası və burada həyatın yenidən qurulması Azərbaycan xalqının milli birliyinin göstəricisidir.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının həmrəyliyini bir daha sübut etdi. Bu həmrəylik sayəsində qazanılmış şanlı Zəfər Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsl mənasını və ruhunu göstərdi. Hər bir azərbaycanlı öz milli kimliyindən və birlik ruhundan qürur duyur, gələcəyə daha inamla baxır.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika.- 2024.- 30 dekabr (№ 290).- S.16.